BUTUN DUNJA JOKSYLLARЬ BIRLƏŞINIZ!

„MOLLA NƏSRƏDDINƏ“ ABONAÇЬ OLMAK ŞƏRTLƏRI:

**Idarə və muəssəsələr uçun:**

Bir ajlьk . . . . . — 80 k.
Uç ajlьk . . . . . 2 m. 40 „
Altь ajlьk . . . . . 4 „ 60 „
Bir illiq . . . . . 9 „ —

**Unvan:** Baqь, Qəhnə Poçta quçəsi № 64. Telefon № 10-83.

**Адрес:** Баку, Старо-Почтовая улица № 64. Телефон № 10-83.

**Zəhmətqəş və xidmətçilər uçun:**

Bir ajlьk . . . . . — 60 k.
Uç ajlьk . . . . . 1 m. 80 „
Altь ajlьk . . . . . 3 „ 50 „
Bir illiq . . . . . 7 „ —

# SAKKALLЬ YŞAKLAR

Biz qəruruq qi, umymi məcbyri savad jolynda by saat Şyra huqyməti heç vakt və heç bir əsrdə qərunməjən tədbirlər qərur. Məqtəb artьrmak uçun bəjuq məsariflər qərur, minlərcə muəllimlər və muəllimlər hazьrlaşdьrьr ta qi beş illiq planda tə'jin olynmyş muddətdə savadsьz vətəndaşьn mikdarь joka çьksьn.

Ancak məni bir kism yşaklarьn fiqri alьbdьr oda sakkallь yşaklardьr.

Mən sakkallь yşaklar o qəslərə dejirəm qi, otyz və kьrk jaşa çatьb amma adlarьnь jazmaka acizdirlər.

Pəs bynlarьn axьrь necə olacakdьr. Savadsьzmь kalacaklar, ja məqtəb jaşlь yşaklar ilə birliqdə bynlarda savad əxz ejləməqə qədəcəqlər?.

Mən duzu, həkikət bynlarьn təqlilini çok agьr hesab edirəm.

Nəjə nə səbəbə?

Səbəbi bydyr qi iş başьnda olan bə'zi işçilər, xidmətçilər by halə kədər onlar uçun açьlan savad məqtəblərində tənbəlliqləri uzundən savadsьzlьklarьnь təsvijə etməmişlər həjat iləri qetmiş, qitlənin aktiviji artmьş, by qibi sakkallь yşaklar isə həjatdan qeri kalmьşlar. Bə'zilərdə belə quman edirdilərqi cuz'i savadla işi jola verərlər, fəkət bojlə adamlar çok səhvdə olmьş və ozlərini savadlandьrmak, savadlarьnь artьrmak jolynda bir iş qörməmişlər.

By belə.

Belə tytak by sakkallь yşaklar hиqymətin məcbyri savad əxz eləməq binaquzarlьkьndan bir «fənd»lə bojyn kaçьrdьlar.

Xyb. bəs dalь necə olsyn.

—

Ony qərəq biz ynytmajak qi beş illiq planьn karşьsьnda şyra işçilərinin ohdəsində olan təqlifi qet qedə agьrlaşьr. Hazьr planьn indi uçuncu ilinə ajak kojdькьmьz bir halda mərqəzi huqymət şyra işçilərindən bəjuq və zərbəli syrətdə çalьşmak tələb edir. Qəturəq mərqəzi komitənin 3 sentjabьr muracəət naməsini qi oxycylar gazetələr vasitəsilə onyn məzmynyndan xəbərdar olmyş olalar qərəq.

Aja savadsьz qənt şyra işçilərimi by muracəətnaməni ca-bə-ca etməqə kadьr ola biləcəqlər.? By jolda tə'jin olynacak fovkul'adə birigadalarda iştiraq edə biləcəqlərmi?

Sənaje' malijjə planьnь dərq edə biləcəqlərmi?, Istigraz məsələsində çalьşmaga onyn bacarьkь və nufyzy çatacakmь? və xilasçji qəlam. Zəmanəmizin tələbatьnьn mukabilində by sakkallь mudirlərimiz dajanьb dyra biləcəqlərmi?

Xulasə by bi savad joldaşlar ozlərini qulunc bir halətə byrakьrlar. Bən koca Molla əminin nəsihətini eşitsələr indi by saat by dəkikə və by sanijənin içində əllərinə qitab və kələm alьb balaca yşaklar qimi savad əxz eləməqə başlajarlar.

Beləliqlə onlar həmi məmləqətə xidmət eləməqə kabil olarlar.

Həmi ozlərini qulunc bir halətdən çьkardarlar. Çunqu-eləqi qəruram. Şyra huqyməti savadsьz bir işçini ozunə jaraşdьra bilməjəcəqdir.

*Molla Nəsrəddin.*

# KOLXOZ

„Şuvalan“ da kolxozyn qələm, Kartof və Pamidor qimi məhsylatь son dərəcə çok hasilə qətirməsindən qənt kylaklarь hurqubna razьlьk edirlər.

Məhsyl işinə qirdi «cəfa» ejlədi
kolxoz
Əhvalimizi pozdy, fəna ejlədi
kolxoz

Jaxşь matory, zor kyjysy, çokly adamь
Malь, pyly çok, əqməjə var jaxşь dəvamь
Jьgdь başьna əl bir edib joksyl, əvamь
«Jazьk» «kylak»a zulmu rəva ejlədi kolxoz
Joksyllara can verdi, dəva ejlədi kolxoz

Hər ildə beş, on min satana kyrdy dyzagь
Aldь duzu, dunjanь by allahsьz yşagь
Qənd işlərini artьrьb oldurdu kylagь
Hər bir işini alu nəva ejlədi kolxoz
Joksyllara can verdi dəva ejlədi kolxoz

Doldyrdy butun hər jeri kartofla qələmdən
Qəstərdi hunərlər kylakь saldь kələmdən
Biçarə kylak nəş'ə alьr indi ələmdən
Zira hamьnь bəxti kara ejlədi kolxoz
Joksyllara can verdi dəva ejlədi kolxoz

Etmiş pamidordan çolu bir salm qulustan
Sanqi kara topraklar olyb kьrmьzь bostan
Xəlkə oxydy hər kanasь bir jeni dəstan
Pəh-pəh nə qəzəl rəsm bina ejlədi kolxoz
Joksyllara can verdi dəva ejlədi kolxoz.

*Tiqanьь*